


# Sənətin və sənətkarların hamisi

## Milli sərvətimiz olan muğamın yaşaması və sevilməsi Mehriban Əliyevanın əvəzsiz xidmətidir

**Muğam ruhumuzun nəğməsidir. Muğamda sevgi, kədər, həsrət,vüsal, qəhrəmanlıq, bir sözlə, bütöv bir xalqın tarixi, milli xüsusiyyəti, əxlaqı, milli düşüncəsi var... Muğam həm oddur, həm də sudur. İnsanın ürəyinə od da sala bilir, qəlbinə sərinlik də gətirir... Muğam Tanrının yaratdığı ən gözəl rəngdir, al-əlvanlıq rəmzidir, füsünkar təbiət mənzərəsidir, gözəl bir seyrəngahdır. O, milli-mənəvi sərvətimiz, millətimizin genetik kodu, nur çeşməsidir. Ucalıq məqamı... Ən nəhayət, könülləri riqqətə gətirən, qəlbə rahatlıq verən musiqidir.**

Muğamdan söz düşəndə, onun bəhrələrini dinləyəndə istər-istəməz milli mədəniyyətimizin hamisi Birinci vitse-prezident, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyeva yada düşür, musiqimizin, incəsənətimizin dünyaya tanıdılması istiqamətində gördüyü çoxşaxəli fəaliyyəti göz önündə canlanır.

Muğama hər zaman fərqli münasibət olub. Onu keçmişin qalığı adlandıranlar da olub, onu ruhun musiqisi hesab edənlər də... Heç şübhəsiz ki, min illərin yaddaşından süzülüb gələn muğam xalqımızın qan yaddaşı, ruhumuzun qidası, milli mənəvi sərvətidir. Məşhur muğam ifaçısı, həm də bilicisi, Əməkdar incəsənət xadimi, Milli Konservatoriyanın Muğam kafedrasının baş müəllimi qocaman xanəndə Aqil Məlikov söhbət əsnasında dedi:

- Muğam məqam deməkdir. Bir pərdənin başlanğıcıdır. Allah insanı kamilləşdirmək üçün ona dil verdi, şeir, musiqi göndərdi. Muğam düşünmək, anlamaq üçündür. Muğam hissin yox, ağlın, düşüncənin məhsuludur. Muğamat elmdir. Onu gərək elmli adamlar oxusun. Sufilər hesab edirlər ki, Allaha yetişmək üçün 4 əsas şərt var: şəriət, təriqət, mərifət, həqiqət! Muğamda bunların hamısı var. Muğam tərbiyə vasitəsidir, insanın mənəvi dünyasını zənginləşdirən, kamilliyə aparan yoldur. Çox şükürlər olsun ki, bu gün belə bir mənəvi xəzinəni qoruyan, onun gələcək nəsillərə çatdırılması və dünyada tanıdılması üçün fədakarlıq edən Mehriban xanım Əliyeva var. Bu gün çəkinmədən iftixarla deyə bilərik ki, Azərbaycan muğamının Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrsinin Reprezentativ Siyahısına salınması Mehriban xanımın zəhməti sayəsində mümkün olmuşdur. Muğamımızın bugünkü inkişafına görə biz muğamsevərlər, bu sənətin xiridarları Mehriban Əliyevaya borcluyuq. Hesab edirəm ki, respublikanın birinci xanımı muğamımızın inkişafına xüsusi diqqət və qayğı göstərməklə kamilliyə, müdrikliyə gedən yola hamılik edir. Mehriban Əliyeva milli-mənəvi dəyərlərin qoruyucusu, insanı müdrikliyə aparan yolun yolgöstərənidir.

Xatırladaq ki, 2008-ci ildə birinci xanım Mehriban Əliyeva Bakının mərkəzində Beynəlxalq Muğam Mərkəzinin tikilməsinə nail olmaqla çağdaş dünyamızın mədəniyyət tarixinin ən mühüm hadisələrindən birinə müəlliflik etdi. Muğam çox olkələrdə oxunsa da, əksər xalqların mədəniyyətində onun nişanələri öz əksini tapsa da dünya musiqisevərləri bu sənətin qibləgahının Azərbaycan olduğu qənaətindədirlər. Təbii ki, bu, heç də asanlıqla əldə olunmuş nailiyyət deyil. Bu, Mehriban xanım Əliyevanın fədakarlığı nəticəsində qazanılmış uğurdur. Təsadüfi deyil ki, dünyada "Muğam" adlı, muğama xitab edən, ona üz tutan, yeganə jurnal yalnız Azərbaycanda nəşr olunur. Bu jurnalın yaradıcısı, naşiri, ilk müəllifi də Mehriban xanımdır.

Qocaman xanəndə Aqil Məlikov deyir ki, Azərbaycan xalq musiqisi praktikasında yeddi əsas lad, yaxud muğam var. Muğam və ya muğamat - mürəkkəb ideya, emosional məna daşıyan, dərin və bitkin təfəkkür, bədii həyəcan və müxtəlif musiqi obrazlarının inkişafını ifadə edən musiqi janrıdır və o, yarandığı ən qədim zamanlardan başlayaraq əsrlərboyu davam edən tədrici inkişaf və təkamül prosesi nəticəsində yetkinləşmiş, formalaşmış, kamilləşmişdir. Azərbaycanda muğamı, adətən, muğam üçlüyünün müşayiəti ilə xanəndə ifa edir. Belə ansamblın ifa etdiyi vokal instrumental bütöv muğam dəsgahı adlanır. Dəsgah muğamın küll halında, yəni onun dəramədinin, bütün şöbə və guşələrinin, eləcə də hər şöbənin təsnif və rəng, yaxud diringələrinin ardıcıl ifa olunması deməkdir.

Xalq artisti, xanəndə Mənsum İbrahimov deyir ki, muğam bizim milli kimliyimizdir: "Yüz illərdən süzülüb gələn tükənməyən milli sərvətimizdir. Hər zaman Azərbaycan müsiqisinin əsasını muğam və aşıq sənəti təşkil edib. Bütün musiqilər muğamın üstündə qurulub. Təsadüfi deyil ki, böyük Üzeyir bəy Hacıbəyli Şərqin ilk operası "Leyli və Məcnun"u muğam üstündə yazıb və onu bütün dünyaya təqdim edib. Eyni zamanda bizim böyük bəstəkarlarımız Fikrət Əmirov, Niyazi, Vasif Adıgözəlov, Süleyman Ələsgərov simfonik muğamlar yazmışlar. Bu əsərlər sevilərək bütün dünyada səslənir. Muğam qədim olduğu qədər də müasirdir. Vaqif Mustafazadənin muğamı cazla sintez etməsi dünya musiqi sənətində bir hadisə idi. Muğam dünyanı sülhə səsləyən bir musiqidir. 1925-ci ildə Üzeyir bəy Hacıbəyli muğamın proqramını tərtib edib.

Muğama dövlətimiz tərəfindən həmişə xüsusi diqqət, qayğı olub. Ölkəmizdə hazırda üçpilləli tədris sistemi var. Uşaq musiqi məktəbi, musiqi kolleci və Milli Konservatoriyada muğam tədris olunur. Heydər Əliyev Fondu yarandığı gündən mən deyərdim ki, muğamımızın ikinci, əsas inkişaf dövrü başlanmışdır. Fondun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə 2005-ci ildən başlayaraq ölkəmizdə Muğam Televiziya müsabiqələrinə start verilib. İndiyə kimi 8 dəfə muğam televiziya müsabiqəsi 6 Beynəlxalq Muğam Festivalı və müsabiqəsi keçirilib. Əlbəttə ki, bu müsabiqələrin nəticəsi olaraq yeni ifaçılar muğam sənətinə gəlmişlər. Muğamımızın inkişafında, muğam ifaçılarına göstərilən diqqət və qayğıya görə mən Mehriban xanım Əliyevaya xüsusi olaraq təşəkkür etmək istəyirəm. Heç kimə sirr deyil ki, ölkəmizin birinci xanımı muğamımızın, mənəvi dünyamızın hamisidir".

Mənsum İbrahimov VIII Muğam Müsabiqəsindən xüsusi olaraq danışdı. Dedi ki, musiqi, muğam ifaçılığı tarixində bu müsabiqənin ayrıca yeri var. Bizim Qarabağ zəfərimizdən sonra muğam müsabiqəsinə musiqi beşiyi olan Şuşada yekun vuruldu. Bunun isə xüsusi mənası var. 44 günlük Vətən müharibəsində ordumuz Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə tarix yazaraq ulu torpaqlarımızı düşməndən geri aldı. Ən önəmlisi budur ki, bu müsabiqənin finalı Şuşada Cıdır düzündə keçirildi. Çox möhtəşəm qürurverici bir mənzərə idi. Təbii ki, Şuşada həmişə çal-çağır olub. Şuşa bizim mədəniyyət paytaxtımız, qürur mənbəyimizin ünvanı olub. Bu torpaq korifey sənətkarların doğulub yetişdiyi torpaqdır. Muğamımızın dünyada məşhurlaşmasında xidmətləri olan insanlar orada dünyaya gəliblər. Bu torpaq dünya musiqisinə dahi Üzeyir bəy kimi şəxsiyyət bəxş edib. Sözsüz ki, Şuşada muğam müsabiqəsi keçirilən gün onların ruhu şad idi. Cıdır düzündən muğamımızın səsi bütün Qarabağa yayılırdı. Artıq Şuşadan güllə səsi deyil, muğamımızın xoş avazı gəlirdi. Bu torpağı azad edən əsgərlərimiz bizim muğamımızı dinləyirdilər. Bütün bu işlərə görə biz Mehriban xanıma minnətdarıq. Azərbaycanın Birinci vitse-prezidenti muğamımızı inkişaf etdirməklə bizi kamilliyə aparan yola hamilik edir. Bu gün muğamımız intibah dövrünü yaşayır.

Hələ ötən əsrin 70-ci illərinin əvvəllərində Sovet İttifaqında UNESCO-nun himayəsi ilə keçirilən ənənəvi beynəlxalq musiqi festivallarında Qərb dünyası Azərbaycan muğamının heyranlığını yaşamışdı. 1971-ci ildə UNESCO-nun 50 albomdan ibarət "Dünya ənənəvi musiqi antologiyası" kolleksiyasına "Şərqin musiqi antologiyası" seriyasında çıxan "Azərbaycan musiqisi" valları daxil edilmişdir. 1975-ci ildə Azərbaycan muğamları yenə də UNESCO tərəfindən "Musiqi mənbələri" seriyasında dünyaya təqdim olunmuşdur. Dünyaşöhrətli rejissor Andrey Tarkovski 1973-cü ildə çəkdiyi və dövrünün məşhur filmlərindən olan "Stalker" filminin musiqisinə Azərbaycan muğamından bir parça daxil etmişdir.

Mütəxəssislər hesab edirlər ki, bu gün Azərbaycan muğamı dünya musiqisinə, mədəniyyətinə tam inteqrasıya edib, özünün intibah dövrünü yaşayır. Dünyanın ən böyük kino şirkətlərinin, "Hollivud"un çəkdiyi filmlərdə muğamımızın müxtəlif bölmələrindən, xüsusilə "Çahargah"dan istifadə olunduğunu görürük. Məşhur cazmenlər böyük ustalıqla Azərbaycan muğamından məharətlə istifadə etməklə tamaşaçıların qəlbinə yol açırlar. İnsanlığın kainatda tənhalıq hissini təmsil etməsi üçün və orada olan hər hansı inkişaf etmiş sivilizasiyanın tapılması məqsədilə NASA Voyacer qızıl plastinkaya Azərbaycan muğamını yerləşdirərək kosmosa göndərib.

Bu gün Beynəlxalq Muğam Günüdür. Beynəlxalq aləmdə öz sözünü demiş və uğur qazanmış bir gündür.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

Azərbaycan. - 2022.- 26 avqust.- S.15.